# NƏSİMİ RUHUNUN İŞIĞINDA...



*İslam SADIQ*

**Azərbaycan ədəbiyyatında böyük şair Nəsiminin dolğun obrazı yaradılıb. İsa Hüseynovun "Məhşər" romanının, Bəxtiyar Vahabzadənin "Fəryad" pyesinin, Rəsul Rzanın "Son gecə" və Qabilin "Nəsimi" poemalarının əsas qəhrəmanı Nəsimidir. Şairlərimiz Nəsimi haqqında çoxlu şeirlər qoşublar. Hətta Nəsiminin adı çəkilməyən şeirlərdə belə bəzən onun obrazını görürük. Çünki Azərbaycan şeirinə dərindən bələd olanların hamısı çox yaxşı bilir ki, hər şairin içində bir Nəsimi var. Bunu yalnız Nəsimi haqqında yazılmış şeirlərlə bağlamaq olmaz. Bizim elə şairlərimiz var ki, Nəsimi haqqında bir misra da yazmayıb, lakin onun bütün yaradıcılığı Nəsimiliklə yoğrulub.**

Azərbaycan şairlərinin Nəsimi haqqında yazdıqları şeirlərin çoxu "məşəqqətli ölüm" motivi ruhunda düzülüb-qoşulub. "Məşəqqətli ölüm" deyən kimi mütləq Nəsiminin dərisinin soyulmağı yada düşür. İnsanın diri-diri dərisinin soyulmağı doğrudan da "məşəqqətli ölüm"dür və bu deyimi şeirimizdə ilk dəfə Əli Kərim işlətmişdir:

**Altı yüz ildir bəşər**
**düşünər,**
**çatmaz yenə**
**Məşəqqətli ölümün**
**Nəsimi zirvəsinə .**
**Altı yüz ildir,**
**altı,**
**Nəsimini soyurlar.**

Altı yüz ildir soyulan artıq Nəsimi yox, Nəsimilərdir. Burada Nəsimi sözü ilə şair sözü sinonimləşir. Altı yüz ildir soyulan şairlərin hamısı Nəsimidir.

Rəsul Rzanın "Son gecə" poemasında ölümqabağı Nəsimini tövbəyə çağırırlar. O da:

**Böyük həqiqətə,**
**doğru sözümə tövbə deyimmi?**
**hər yanda**
**zülmü, səfaləti**
**görən gözümə tövbə deyimmi?**
**Mən deyirəm Allahın**
**canlı təcəssümü**
**sənsən, mənəm.**
**Allahın damlası**
**İnsan özüdür.**

deyərək əqidəsindən zərrə qədər də dönmür.

B.Vavabzadə "Fəryad" pyesində Nəsiminin dilindən söylənən bir parça şeirdə məhz Nəsiminin qəlbindəki Tanrının çoz gözəl, dolğun obrazını yaratmışdır.

Nəsiminin soyulmağından hirslənmiş İsa İsmayılzadə Bakıdakı heykəlini şairin öz dilindən hirs heykəli adlandırır:

**Mənə səs heykəli deyin-**
**Qəribsəmiş, doluxsunmuş**
**səs heykəli.**
**Mənə hirs heykəli deyin-**
**Diri-diri soyulsa da,**
**Qışqırığı soyumayan,**
**uyumayan**
**Qızıl qanın hirs heykəli...**

Nəsimi bir axşam "ənəlhəq, ənəlhəq" nidalarıyla Əhməd Cəmilin qapısını döyüb ona qonaq gəlir. Bu zaman şairin otağı işıqla dolur və ona elə gəlir ki, günəşlə söhbət eləyir.

Əliağa Kürçaylı da Nəsimini günəşə bənzədir. Onun şəklini çəkən rəssama deyir ki, "sən Nəsimini elə çək ki, başından səpələnsin şimşək, günəşin nurunu doldur gözünə, kişilik nəqş elə dönməz üzünə". Onun "mən insanam" şeirinin də bütün misraları Nəsimi duyğularıyla yoğrulub.

İsa İsmayılzadə Nəsimini günəşin oğlu adlandırır və onun haqqındakı "günəşin nəğməsi" şeirində şairin ölümünü günəş nəğməsinin susmağına bənzədir.

Qabil Nəsimi haqqındakı dastanını (poemasını) yarımçıq qoyub, Hələbə şairin görüşünə gedir. Qabilə elə gəlir ki, Nəsiminin dərisini soyan və soyduran zahidlər onu dövrəyə alıblar. Burada qulaqlarına Nəsiminin səsi gəlir. Bu səs ona deyir ki, qorxma, bu dünyada zahidlər qədər qorxaq yoxdur.

N.Həsənzadə Nəsiminin mayası atalar sözlərimizlə yoğrulmuş"Heç gül olmaz tikansız,Heç şad qüssəsiz" sətirlərini şeirinə sözönü qoyaraq deyir:

**Biz yazırıq, pozuruq,**
**yazılmayan yazı var,**
**Yer altının yer üstə**
**gizli əlifbası var.**
**Yaxşının yanında pis,**
**pisin də arxası var.**

Ağasəfa "Nəsimi deyən kimi üfüq yarılır və onun xəyalında qızıl bir Günəş doğur". Bu günəşin adı Nəsimidir. Sonra da şair "əziz balalarını başına yığıb onlara Nəsimi babalarından bir nağıl danışmaq" istəyir. Bu nağılın da əsas qəhrəmanı Günəşdir.

Məmməd İsmayıl Hələbdə Nəsiminin qəbri önündə düşüncələrə dalır və bu zaman şəhərin üfüqlərindəki qızartıya baxıb deyir ki, "Nəsiminin qətlini görərsən hər gün Hələb səhərinin rənginə baxsan". Nəsimini Məmməd İsmayıl da günəşə bənzədib: "Ey günəşim, sən günəşin özünə belə şeirin günəş qüdrətini xatırlatmısan".

Xəlil Rza Ulutürk deyir ki, "yaşayaq, yaradaq! Ölsək də ölək bir ömrə sığmayan Nəsimi kimi!"

Oqtay Rza isə "sevginin sehrli rübabını Nəsimi kimi çalmaq" istəyir.

Müzəffər Şükür Nəsimini "bahar yeli, səhər yeli", Məmməd Aslan Nəsimini yetirən odlar yurdunu "qoca nər", Nazim Əlioğlu şairi "haqqın zil səsi, inam zirvəsi" adlandırır. Zabil Pərvizin "İnandım allahın varlığına mən, Bəşərmiş ilk adı bu ilk qüdrətin" misralarını oxuyan kimi Nəsimi yada düşür. Tofiq Nurəlini yandıran odur ki, şairlər bir-birlərini soyurlar. Əli Kərimi də, Nazim Hikməti də, Füzulini də elə bu gün soyanlar var və hələ çox şairlər beləcə soyulacaqlar. Adilə Nəzər özü soyulub Nəsimiyə dəri olmaq istəyir. Dəmir Çeşməli kiminsə əliylə dara çəkilir. Əbülfəz Ülvinin Nəsimisi zahidə kişilik dərsi keçir.

Dəmir Gədəbəyli Hələbdə "qoca dünyaya meydan oxuyan" bir Nəsimi qalası da görür və onun haqqında oxucusunu bilgiləndirir. Sonra da "ərəbin bizi qul eləyib hər gün Hələb bazarında satdığını xatırladır ki, gələcək nəsillər unutmasınlar.

Fərqanə Mehdiyeva əvvəlcə heç olmasa "bircə hecasını, bircə bəndini Nəsimi kimi yaza bilməyi" arzulayır. Bunun ardınca hiss eləyir ki, onu da "ürəyindən soyurlar və Nəsimi kimi yanır".

Tahir Taisoğlu Nəsiminin Hələbdə, onun qardaşı Seyid Əlinin Şamaxının Şaxəndan qəbristanlığında duyğulanır. O öz şeirində bu iki qardaşın "ruhuna göylərin öz dəyirmanından urvalıq göndərdiyini" olduqca gözəl və obrazlı ifadə etmişdir. Buradakı əsas poetik fikir Nəsiminin ruhunun tanrı urvasıyla yoğrulmağıdır.

Barat Vüsal saralsa da günəşin sönmədiyini deyəndə Nəsiminin günəş kimi əbədi yaşayacağını düşünür.

Dayandur Sevgin Nəsiminin "yerini görür səmada, onu göylərin dan yeri sanır".

O Nəsiminin "Hər axşam günəşlə birgə yatıb, Hər səhər üfiqdə Günəşlə qoşa göründüyünü" düşünür.

Məhərrəm Qasımlıya görə, Nəsimi bu dünyanın qanmazlığını zahidin üzünə tüpürməklə bildirmişdir.

Nəsimi Əli Rza Xələflinin "qızaran dan yeri", düşüncə qalasıdır".

Nizami Muradoğlunun Nəsimisi şeirimizin qibləgahıdır. Onun dərisini soyanların isə adları da çoxdan, elə öldükləri gün unudulub.

Sahib Camal deyir ki, "ölüm heç özünü öyməsin, o da elə Nəsimi boydadı", ondan böyük deyil.

Maşallah Məftunun qələmində Nəsimi yenidən soyulur. Çünki onun davamçıları da, avamçıları da çoxalır.

Ağacəfər Həsənli "Ədalət tarixin kar qulağından Sırğaya çevrilib asılmadıqca" çox narahatdır və elə bu saat "fikirlər burulğanına atılıb, gedib Hələbdən çıxmağa" can atır.

Yusif Nəğməkarın qəlbində "Bir qəlbin iki cahana Sığmazlıq kodudu, Sözü sözündən dönməyən Dünənin adıdı", bir sözlə, "Hələbdə Azərbaycandı" Nəsimi.

Rəşad Məcidin Nəsimisi "günəş kimi işıq saçır" və insanın işıq saçmağına inanmayanlar onun dərisini soyurlar.

Balayar Sadiqin şeirində Hələb şəhəri hələ də "Nəsiminin dodağında ölən misralara salavat çəkir."

Qələndər Xaçınçaylı duyur ki, "Nəsimini soyanlar bu saat qır qazanında yanırlar".

Mahmud Vəlinin qələmində qəssab (cəllad yox, qəssab) Nəsimini hələ də soyur. Şair 600 il əvvələ gedib Nəsiminin soyulduğuna baxaraq günümüzə sarı yol gəlir.

Xanəmirin şeirinin adı "Nəsimidə "ənəl-həqq"dir. İlk baxışda adama elə gəlir ki, bu şeirin adından başqa Nəsimiylə heç bir bağlılığı yoxdur. Lakin şeirin bütün misraları Nəsiminin ruhuyla yoğrulmuşdur.

İslam Sadıq bir "Nəsimi simfoniyası"na qulaq asır. Bir səs " zirvələrin Nəsiminin ayağından olduğunu söyləyir. O, Nəsimiyə deyir: "Qaranlığı öz nuruna bükməyin də ustadısan. Zirvələri ayağına çəkməyin də ustadısan". İkinci səs Nəsimini soyan nadanların çaşdıqlarından danışır: " Səni soyan nadanıydı, işıq nədi o nə qanır?! Çaşmışdır ki, gün batanda dünya niyə işıqlanır?!"

Bu qədər şeirin arasında oxşarlıqlar olsa da, çox böyük duyğu, düşüncə və duyum zənginliyi var. Bütün oxşarlıqlar, səsləşmələr ruh doğmalığından gəlir. Burada başqa cür düşünməyə dəyməz. Çünki hər bir şair Nəsimiyə öz baxış bucağından boylanır, öz duyğularının, düşüncələrinin səsinə qulaq asır. Duyum yaxınlığı, səsləşməsi olsa da, onların səsləri və bu səslərin ipə-sapa düzülməsindən yaranmış misralarda eynilik yoxdur. Bir çox şeirlərdə Nəsimi günəşə bənzədilir. Ancaq bu günəşlər də şairlərin duyğuları, düşüncələri qədər bir-birindən fərqlənir. Nəsiminin günəşə bənzədilməyi bir tərəfdən xalqımızın düşüncəsindən, digər tərəfdən Nəsiminin öz yaradıcılığından qaynaqlanır. Xalq təfəkküründə işıqlı, nurlu, ölməz insanlar günəşə bənzədilir. Bu bənzərliyin arxasında çox dərin fəlsəfi düşüncələr dayanır. Nəsimi poeziyasının ruhuna, mayasına hopmuş tanrı-insan konsepsiyasının kökləri də məhz bu düşüncəylə bağlıdır. İkinci qaynaq Nəsiminin özündən gəlir. Şair bir şeirində özünün günəş olduğunu söyləmişdir:

**Bir günəşdir Nəsimi kim, anın**
**Neçələr zərrəsinə həsrətdir.**

**Altı yüz əlli ildi Azərbaycan poeziyasının sonsuz göylərində Nəsimi adında bir günəş parlayır və onun işığı indi Azərbaycanın göylərini aşıb dünyanın çox yerlərini nurlandırır. Nə qədər bu dünya var, Nəsimi adlı Günəş də sönməyəcək!**